# Yalançı Ariflərin Əlamətləri

Rauf Musayev[1]

İslam Araşdırmaları Fakültəsində Tədqiqatçı, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## Abstrakt

Özlərini Allah-taala qarşısında heç sayan və heç vaxt özlərinə tərəf dəvət etməyən həqiqi ariflər müqabilində yalançı ariflərin xüsusiyyətlərindən biri özünüböyükgörmə (təkəbbürlük) və özünə tərəf dəvətdir. Onlar özlərini adətən kəramət və fövqəladə qüdrətlər sahibi kimi göstərirlər. Müxtəlif metodlarla öz müxatəblərini, müridlərini "nemət vəlisi" və ixtiyar sahibi olduqlarına inandırmağa çalışırlar. Əlbəttə bu fəsilin sonunda izah edəcəyimiz kimi, bəzən xariqüladə işlər görürlər və bu məsələ bir çox sadəlövh insanların aldanmasına səbəb olur. Onlar özlərinin təkvini qüdrətə malik olduqlarını deyirlər, yəni bu aləmin bütün məxluqatı onların izni və icazəsi ilə hərəkətdədir, əgər istəsələr bütün aləmi hərəkətdən saxlaya bilərlər. Xatırladaq ki, bu məqalə yazıçı və araşdırmaçı Dr. Əhmədhüseyn Şərifinin "Həqiqi irfanlar və yalan irfanlar" kitabından alıntıdır.

**Açar kəlmələr:** İrfan, Haqq, Yalan, Mənəviyyat, Şəriət

---

[1]. Email: raufimranoglu@gmail.com

## Giriş

Yalançı ariflərin təbliğ metodlarından və özünüböyük göstərmək yollarından başqa biri də öz sözlərini sirli, üstüörtülü şəkildə cilvələndirməkdir. Yalançı arıfların başqa bir xüsusiyyəti də İlahi dinlər ilə elmi və əməli mübarizə aparmaq və müxalifətçilik etməkdir. Onlar dinlərin xəbərini və peyğəmbərlərin (ə) tövsiyələrini öz yollarına maneə bilirlər. Buna görə də müxtəlif motodlarla peyğəmbərlərin (ə) xəbərləri və İlahi hidayətlər ilə öz müxakifətçiliklərini elan etməyə çalışırlar.

Yalançı ariflərin xüsusiyyətlərindən başqa biri də seyri-süluk pluralizmidir. Bu xüsusiyyət həm müsəlman sufilər, həm də müasir dövrdə irfan və mənəviyyat iddia edənlər arasında çox məşhurdur. İrfani pluralizmin ifrat səthlərindən biri budur ki, bütün seyri-süluk metodları hər hansı məqsəd və hədəflə olur-olsun düzgün və haqdır. Yəhudi irfanı haq olması cəhətinə görə məsihi irfanından fərqlənmir. Necə ki, İslam irfanı bu cəhətə görə qırmızıdərili xalqların irfanından və hind irfanlarından fərlənmir! Bütün bu irfanlar haq və doğrudur. Mühüm olan şey tərəfdarların xalis əməl etmələridir. Hər hansı ayin və məzhəbi olan şəxsin bu ayinin düzgün olub-olmaması haqqında düşünməsi lazım deyil. O bu ayinin qanunlarını, təlimlərini qorumalı, və onlara diqqət və əməl etməyə çalışmalıdır. İrfani pluralizmin ikinci səthini "seyri-süluk pluralizmi" adlandırmaq olar. Pluralizmin bu səthində bir qrup insan inanır ki, hətta əgər Allahı axtaran və Onda fani olmaq istəyində olan irfanları düzgün hesab etsək, yenə də bu hədəfə çatmaq yolu yeganə deyil. Əksinə, bu hədəfi təmin edən yollar müxtəlifdir.

Biz qeyd olunan mənadakı hər növ pluralizmi inkar edir və düzgün hesab etmirik. Həqiqi irfan o irfandır ki, Allah

axtarışındadır və İlahi təlimlər əsasındaddır. Bu hədəfə, yalnız Allahın qanunlarına əməl etməklə nail olmaq olar.

Bəzi sufi firqələri bu inancda idilər ki, namaz, oruc və digər şəri vəzifələrin yerinə "Nadə Əli" duasını oxumaq, ney ağlatmaq və s. kimi şeylərlə tələb olunan nəticəni əldə etmək olar. Hətta Mövlananın mənəvi halları haqqında belə nəql olunur ki, o, tənburun sədalarına qulaq asarkən bir nəfər ona əsr namazının vaxtının çatdığını deyir. Amma o tez cavabında deyir: "Ney, ney başqa namazdır, bu da başqa namaz. Hər ikisi haqqa çağırır. Biri zahiri xidmətə, o biri isə batini məhəbbətə, haqqın mərifətinə dəvət edir." Yaxud da sufilərin böyüklərindən başqa birisi Əbu Səid Əbul-Xeyr (375-440 h.q.) sufi rəqsi və səması halında ikən ona namazın vaxtının çatdığı deyildi. Amma o rəqs halında deyirdi: "Biz namazdayıq!". Bu zəmində bəzi sufilərdən bir çox dastanlar nəql olunub. Bütün bu halların və rəftarların ümumi ruhu budur ki, sufi "səma" sının və onların digər rəftarlarının həqiqətə qovuşmaqdakı rolu şəri ibadətlərə nisbətən daha çox və daha faydalı olmasa da, amma az da deyil. Ən azı bu yol da şəri ibadətlər kimi bizi hədəfə çatdırır. Başqa sözlə, onlar güman edirdilər ki, peyğəmbərlərin (ə) və vəhyani şəriətin təlimlərlə yanaşı həmin rolu ifa edən başqa şəritələt və yollar, o cümlədən sufi qaydaları da var. Bu fəlsəfəyə əsasən onlar bəzən şəriətə zidd olan əməlləri (məs: oğurluq) nəfslə mübarizə və qəlbi xəstəliklərin müalicəsi şərti ilə müsbət qiymətləndirirdilər.

## Sözdə Və Əməldə Ziddiyyət

Bir nöqtəyə diqqət etmək lazımdır: o da budur ki, bir çox irfani pluralizm iddiaçıları sözdə belə bir iddia etsələr də, amma əməldə özlərinin bu inanclarına söykənmirlər. Onların çoxu yeganə nicat yolunun öz iddialarına itaət etmək olduğunu deyirlər. Dalay Lama, Say Baba kimiləri tərəfindən öz ardıcılları üçün digər

dinlərin düzgün olmasını iddia etmələri zahiridir, sırf təbliğ xaraktetlidir və daha çox insan cəlb etmək üçündür. Onlar yaxşı bilirlər ki, İslam təlimlərinə əsaslanan şəxs heç vaxt onların maarifini qəbul edə bilməz. Buna görə də onlar öz ardıcıllarına İslama və yaxud digər dinlərə praktiki yaxınlaşmağa icazə vermirlər. Əksinə, nəzərlərindəki hədəfə çatmağın yollarından birini müridlərin əvvəlki inanclarını silib atmaqda görür və təkid edirlər ki, onların təlimlərinin təsirli olması üçün fərdlər özlərinin əvvəlki bütün zehni və daxili inanclarından əl çəkməlidirlər. Bunun possessivizmdən və pluralizmi inkar etməkdən başqa mənası varmı?

Həmin məsələ sufilərə başqa formada aid olur: sufilərdən bizə ziddiyyətli rəftarlar, əməllər, sözlər gəlib çatıb. Onlardan bəziləri həmişə şəri qanunlara itaət etməyə təkid etsələr də, seyri-sülukda hər növ pluralizmi yanlış bilsələr də eyni halda mövcud mənbələrə əsasən onlardan zidd əməllər və düşüncələr də nəql olunub. Misal olaraq, nəql olunur ki, Bayəzid Bəstami həzrət Peyğəmbərin (s) necə yemiş yediyini bilmədiyi üçün yemiş yeməzmiş.  Yaxud o, ağız suyunu qibləyə tərəf atan bir ustadla söhbət etməkdən çəkinmişdi.  Bununla belə bu insanın şəthiyyatlarında şəriətə zidd sözləri var. Şəms Təbrizi bu haqda deyir: “Axı itaətin forma (surəti) və məzmunu (mənası) var. İtaətin formasını qoruyub saxlayırsansa, onda onun həqiqətini və mənasını necə zay edə bilərsən axı? Hansı ki, həzrət Mustafa (s) – “Sübhanəkə (Sən sübhansan, pak və müqəddəssən), bizim Sənə ibadətimiz layiqincə deyil, Sənin ibadət haqqını ödəyə bilmərik” deyir, amma Bayəzid isə – “Mən sübhanam, pak və müqəddəsəm, məndən daha əzəmətlisi yoxdur” deyir. Əgər kimsə güman etsə ki, onun mənəviyyatı Mustafanın (s) mənəviyyatında daha güclüdür, çox axmaq və nadan insandır.”

Yaxud da Hucveyri "Həqiqət halı kəşf olanda, şəriət aradan qalxır" iddiası əleyhinə çıxır və belə deyənləri kafir və ateist adlandırır. Həmçinin, Səhl ibn Abdullah Tüstərinin halları haqqında deyir: "Bəziləri onu vəsf edərkən belə deyir: o, şəriət və həqiqəti bir yecə cəm eləyən şəxs idi". Amma Hucveyri bu tərifə qarşı çıxır və deyir ki, bu xüsusiyyət Tüstəriyə aid deyil, ona görə ki, "Heç kim fərq eləmir, şəriət həqiqətdən, həqiqət də şəriətdən başqa bir sey deyil". Əlbəttə, Bu xüsusiyyəti Tüstəriyə aid etmək haqqında deyir ki, o sadə və axıcı danışdığına görə anlaşılması hamı üçün asan idi, yoxsa bütün övliya və sufilər şəriətlə həqiqəti eyni birlirlər. "Allah-taala həqiqətlə şəriəti cəm etdiyi üçün Onun övliyalarının fərqlənməsi mümkün deyil. ... Əgər bir şəxs imanın sağlamlığı haqqında onlardan birini o birindən ayırmaq istəsə ayıra bilməz və onun bu istəyi batildir. Şəriət həqiqətin ayrılmaz budağıdır, necə ki, mərifət həqiqətdir və əmri qəbul etmək şəriətin qanunudur. Elə isə bu zahirşünaslar onun daxilinə girməsələr onu inkar edəcəklər və haqq yolunun əsaslarından birini inkar etmək xətərlidir."

Bununla belə həmin Hucveyri sufilərin ayinlərindən qaynaqlanan məstliyi şəri vəzifədən qaçmaq üçün bir bəhanə sayır və sufilərin səma halında paltar cırmaqlarının izahında deyir: "Təriqətdə xirqənin heç bir əsaslı kökü yoxdur, əlbəttə səma halında bəlkə də israfdan başqa bir şey deyil. Amma əgər dinləyən şəxs hallanarsa, ondan bir söz xaric olsa və xəbəri olsa üzrlü olar."

Əttar Nişapuri də bir tərəfdən bu sözü, ağız suyunu qibləyə tərəf atan ustad haqqında Bayəzid Bəstamidən nəql edir (Bəstami: əgər o, təriqətdə ustad olsaydı, şəriətə xilaf iş görməzdi), digər tərəfdən də öz müridinin mənəvi xəstəliyini müalicə etmək üçün ona namazı tərk etməsini məsləhət görən şeyxlərdən birinin bu məsləhətinin izahında deyir: "Əgər bir şəxs bir şeyxin bir müridə

“Namaz qılma, yat!” deməsinin necə mümkün ola biləcəyini soruşarsa, cavabında deyim ki, onlar təbibdirlər. Təbib bəzən zəhərlə müalicə edir. Təbib onun probleminin həllinin bunda olduğunu bildiyi üçün ona əmr edir və o isə özünü namaz qılmaqla vəzifəli bilir, namaz qılmaya bilməz... Təriqətdə elə şeylər var ki, şəriətlə düz gəlmir, necə ki, Allah həzrət İbrahimə (ə) öz oğlunu (ə) qurban kəsməsini əmr etdi. Eləcə də həzrət Xızırın (ə) bir oğlanı öldürməsi. Kim bu məqama çatmamış ora qədəm qoysa, zındıq, ölməli olan şəxs görsə, şəriətin əmrini yerinə yetirməli olar.”

Yaxud, Əttar Nişapuri “Təzkirətül-Övliya” da gətirir ki, Bayəzid Bəstamiyə – “Bizə zahidliyi və ibadət etməyi əmr edirsən, amma özün namaz qılmırsan!” deyildikdə, o belə cavab verir: “Zöhd və ibadət məndən qırılıb”, yaxud da “Niyə gecə namaz qılmısan?” sualının cavabında deyir: “Mənim namaza vaxtım yoxdur, mən mələkut aləmində gəzirəm, harada bu yolda ehtiyacı olan bir nəfər varsa onun əlindən tuturam, yəni öz daxilimdə iş görürəm”.

**İlkin Sufilərin Şəriətçiliyi**

İlkin sufilərin bir çoxu, xüsusilə də (hicri) III, IV əsrin sufiləri inanırdılar ki, hədəfə çatmaq üçün din və şəriətin ziddinə olan vasitələrdən istifadə etmək olmaz. Buna görə seyri-sülukda Quran və sünnəyə itaət etməyi əsas götürür və başqalarının düşüncələrini və əməllərini bu meyarla ölçürdülər. Aşağıda, ilkin sufilər arasında bu tərzi-təfəkkürün nümunələrinə baxaq:

Təsəvvüf mənbələrində nəql olunduğu kimi Əbu Osman Hiri (vəfatı: h.298) şəriətə olduqca bağlı olan sufilərdən idi. O bu barədə deyirdi: zahirdə Peyğəmbər (s) sünnəsinə zidd əməl edənlərin riyakar batinləri var: “Zahirdə sünnəyə zidd əməl etmək batini riyakarlığın əlamətidir”. Hətta ömrünün son anlarında bu

müsibətə görə öz oğlunun paltarını cırdığını gördükdə narahat halda deyir: “Oğul! Sünnəyə zidd əməl edirsən və sünnəyə zidd olmaq riyakarlığın, nifaqın əlamətini zahir etməkdir; necə ki, “Kuzədən, məhz onun içindəki tökülər” deyiblər”.

Yaxud, Zünnun Misri həzrət Rəsulallahın (s) sünnəsinə əhəmiyyət verməməyi insanı fəsada, məhv olmağa çəkən amillərdən sayırdı.

Cüneyd Bağdadi, Əbu Süleyman Əbdürrəhman ibn Ətiyyə Darani (vəfatı: 215 h.q) adlı bir arifdən nəql edir ki, o, təriqətin şəriətlə birgə olmasının zəruriliyinə təkid etib və hər cür irfani sözün və təcrübənin qəbul olunma meyarını onun “kitab” və “sünnə” ilə uyğun olmasında bilirdi. O cümlədən bu söz də Əbu Süleyman Daraninin sözlərindəndir: “Kim sünnəyə itaət etmədən əməl edərsə, batildir”. Cüneyd Bağdadi, Daraninin şəriətçiliyi və dindəki ehtiyatları haqqında bu sözü ondan nəql edir: “Ürəyimə nəyinsə dammağı çox olub. Bir neçə gün qəbul etmirəm, yalnız iki ədalətli şeyin – “kitab” və “sünnə” nin şəhadətindən sonra”. Xacə Abdullah Ənsari də Əbu Süleymanın dilindən nəql edir: “Çox vaxt qəlbimə 40 gün həqiqət nazil olur, amma qəlbimə daxil olmasına icazə vermirəm, yalnız kitab və sünnənin şahidliyi ilə”.

Hicri III əsrin sufilərindən olan Əhməd ibn Əl-Həvari deyir: “Kimin əməli sünnəyə uyğun olmasa, batildir”.

III əsrin digər sufilərindən olan Əbu Həfs Ömər ibn Səlm Əl-Həddad deyirdi: “Kim əməlini və halını kitab və sünnə ilə ölçməsə düşüncələrini ittiham etsin, hətta imtahandan çıxmış şəxs olsa belə”.

Həmçinin Cüneyd Bağdadi də məqsədə çatandan sonra vəzifənin götürülməsi iddiası ilə ciddi şəkildə müxalif idi. Cəriri deyir ki, Cüneyd Bağdadidən eşitdim ki, bir kişi Allah mərifətinə çatanda Ona yaxın olduğuna görə şəri əməlləri tərk edildiyini

deyir. Amma bu söz yalandır, mənim nəzərimdə qəbul olunmur, oğurluq və zina edən mənə görə belə adamdan daha yaxşıdır".

Əbu Həmzə Bağdadi (vəfatı: 289 h.q) bu haqda deyir: "Kim haqq younu bilsə, onun üçün bu yolu getmək asan olar və Allaha qovuşmaq üçün Rəsulallaha (s), onun (s) əməllərinə, sözlərinə və hallarına uyğun itaət və hərəkət etməkdən başqa yol yoxdur".

Əbül-Qasim Dəməşqi, Əbu Əli Rudbaridən nəql edir ki, ondan–Bu çalğı aləti ilə səma edən "Mən elə bir dərəcəyə çatmışam ki, bunlar mənə təsir etmir, ona görə də bu mənə halaldır" deyən şəxs haqqında soruşduqda, o belə cavab verdi: "Bəli, çatıb, amma cəhənnəmə çatıb".

IV əsrdə yaşamış Əbül-Qasim Nəsr Abadi (vəfatı: 367) adlı bir sufi – Bəzi insanlar qadınlarla oturur və onların "biz onları görməkdə məsumuq" sözünün tənqidində deyir: "Nə qədər ki, bu bədən hələ yaşayır halal-haram ona vacibdir, şəri vəzifələr onun üzərindən götürülmür".

Qüşeyri öncəki sufilərin irfani seyri-sülukda şəriətin lazım olması, sünnəyə itaət etməyin zəruriliyi haqqında dediyi sözləri bəyan etdikdən sonra nəhayət öz nəzərini də belə bəyan edir:

-Onlar şəriətə ehtiram qoyurlar, riyazətlə məşğul olurlar, sünnəyə əməl edirlər, bunda heç bir əskiklik etməzlər. Onlar deyirlər ki, kim nəfslə mübarizə aparır, amma təqvaya riayət etmirsə, Allaha yalan nisbət verirsə, ona müridlik etmək insanı azdırar.

Əbu Nəsr Sərrac "Əl-Lümə Fit-Təsəvvüf" kitabında irfani seyri-sülukda şəriətə itaət etməyin zəruriliyi haqqında deyir: "Müxtəlif cəhətlərə görə ümumi camaatdan fərqlənən sufilər işləməyi, qazanmağı kənara qoyublar, bütün bağlılıqları kəsib atıblar və Allaha bağlanıblar, Allah ilə tanınırlar, Ona nisbət verilirlər. Onlara namazın ədəb qaydalarına, hökmlərinə

əhəmiyyət verməmək, vacib və müstəhəb əməllərinə, nafilələrinə əməl etməkdən boyun qaçırmaq heç vaxt caiz deyil. Ona görə ki, onların başqa məşğuliyyətləri yoxdur və onların başqa işlərə namazdan daha çox əhəmiyyət vermələri layiq deyil.”

Hucveyri “Kəşfül-Məhcub” kitabında həqiqətə qovuşmuş şəxslərin boynundan şəri vəifələrin düşməsi iddiasını küfr hesab edir və deyir: “Kafirlərin bir hissəsinin – “həqiqət halı kəşf olanda şəriət ortadan qalxır” sözü “Qəramitə” firqəsinin sözüdür”.

Şəms Təbrizi (vəfatı: 645 h.q) özünün dediyinə əsasən əvvəldə fəqihlərlə oturmazdı, onları dərvişlik məqamlarından uzaq bilirdi. Amma deyir ki, bir müddət dərvişlərlə bir yerdə olandan, təsəvvüf və dərvişlik iddiası edənlərlə tanışlıqdan sonra fəqihlərlə oturmağa rəğbətim daha da çoxaldı. Çünki fəqihlər əziyyət çəkirlər, amma bunlar isə sadəcə “biz dərvişik” deyə boş-boş iddia edirlər. Axı dərvişlik hanı?

İbn Ərəbi şəriətçiliyin zəruriliyi haqqında deyir: həqiqətən də şəriət aydın bir yoldur, xoşbəxtlərin metodudur və səadət yoludur. Kim şəriət yolu ilə hərəkət etsə, nicat tapar və kim bu yolu tərk etsə, həlak olar. Həzrət Rəsulallah (s) “Bu, şübhəsiz ki, mənim doğru yolumdur...” ayəsi nazil olanda yerdə düz bir xətt çəkdi, sonra onun sağ və solundan da xəttlər cızdı. Öz mübarək barmağını bu düz xəttin üzərinə qoydu və həmin ayənin bu hissəsini oxudu: “Bu, şübhəsiz ki, mənim doğru yolumdur, başqa yolara yox məhz ona uyun”. Sonra da əsas xəttin sağ-solunda çəkdiyi xəttlərə işarə edərək həmin ayənin bu hissəsini oxudu: “Allahın yolundan sapdıracaq yollara yox”.

İbn Ərəbi hicri 608-ci ildə Bağdad şəhərində İlahi məkr haqqında onun üçün baş vermiş bir mükaşifəni şərh edərkən deyir: “Allah məkrindən amanda qalmağın necəliyi haqqında fikirləşdim, bunun üçün şəri mizanı, şəriəti bilməkdən başqa bir

yol tapmadım. Elə isə kim Allahın ona xeyir verməsini və Öz məkrinə düçar olmaqdan, bəlalardan amanda saxlamasını istəyirsə, şəriət ölçülərini əldən verməməlidir.”

**Hədəflə Vasitənin Əlaqəsi**

Həqiqət budur ki, məqsəd və mənzil başına çatmağın, ariflərin hədəflərinin kulminasiya nöqtəsi olan “İlahi Qürb” (Allaha yaxınlıq) məqamına yetişməyin özünün xüsusi yolu var. İstənilən yolu getməklə, istənilən vasitədən istifadə etməklə bu hədəfə çatmaq olmaz. Aydındır ki, Allahın razılığını və Ona yaxınlaşmağı Ona itaət etməməklə, günah etməklə ələ gətirmək olmaz! Necə ola bilər ki, bir adam öz məhbubunun, məşuqunun əmrlərini, istəklərini nəzərə almadan onun dərgahına yol tapsın? Həqiqi aşiq heç vaxt özünə bir an da olsun məşuqunu unutmasına icazə verməz. Bütün hərəkətlərində, hallarında həmişə məşuqun razılığını axtarar. Əgər bir an onu yad etməyi unutsa daim ağlamaqla, ona tərəf dönməklə, tövbə ilə həmin unutqanlığın yerini doldurmağa çalışar. İmamların (ə) ağlamaqlarının, tövbələrinin ən əsas səbəblərindən biri həmin məsələ olub. Gündəlik məşğuliyyətlər ismət məqamına sahib olanların, şəri günahlardan uzaq olanların eşq və məhəbbət məqamının tələb etdiyi şəkildə öz məşuqunun, məhbubunun haqqını ödəməsinin qarşısını alır. Bu məsələ onların bu cür ağlamasına səbəb olurdu, hətta ən ciddi şəxslər böyük günahları üçün öz tövbələrində heç vaxt belə ağlamırdılar.

Məşhur ariflərdən biri bəzi sufilərin nəzərləri haqqında deyir: “Bir qrup vurğun və məftun şəxslər gözəl üzlü cavan oğlan simasına baxmağı xoşlayırlar, onların “biz bununla İlahi camala tamaşa edirik” iddiaları yalan və batildir. Halala baxmaq ruhu və ağılı zəiflədirsə, İlahi məhəbbətin vəzifələrini yerinə yetirməyin qarşısını almaqla nəticələnirsə, gör onda harama baxmağın

nəticəsi nə olar? Bu qrup adamların səhv etməsinin mənşəyi odur ki, onlar nəfsin bu zaman şəhvətin təhrik olmasından, həyəcana gəlməsindən amanda olduğunu hesab edirlər. Güman edirlər ki, bu rəğbətin səbəbi şəhvət deyil. Bu, yanlış bir gümandır. Sadəcə olaraq bu şəhvət onlarda lətifləşmişdir və onlar bunu anlamırlar.”

**Sünnə Və Din Övliyalarının Yolu**

Hər halda, İslam dininin və şəriətinin irfana böyük xidmətlərindən biri seyri-süluka ən gözəl şəkildə, ən asan yolla çatmağın metodunu təqdim etməsidir. İrfani seyri-sülukun ən gözəl yolu şəriətə əməl etməkdir. Şübhəsiz, heç bir insanın İslam Peyğəmbərinin (s) və İmamların (ə) mənəviyyat zirvəsinə çatmağa qüdrəti yoxdur və hamımız bilirik ki, bu böyük şəxsiyyətlər (ə) həmin yüksək məqama şəriətlə yiyələnmişlər. Həzrət Rəsulallah (s) şərafətli ömrünün son anlarına qədər İlahi qanunları yerinə yetirməyə bir an belə etinasız yanaşmayıb. İmam Əli (ə) namaz mehrabında şəhadətə çatdı, İmam Hüseyn (ə) yaxşılıqlara dəvət, pisliklərdən çəkindirmək vəzifələrinə əməl etməklə böyük məqama nail oldu. Heç bir din övliyası həqiqətə çatmaq üçün şəriətə əməl etməkdən başqa bir yol getməyib.

**Məşuqun Razılığı**

İzzətli İslam məsum və Allahın təhrif olunmamış yeganə dini olaraq bəşərin ixtiyarındadır. İnsanların mənəvi yüksəlişi üçün vahid həyat proqramından və metodundan artıq yol yoxdur və o da İlahi və şəri qanunlara, əmrlərə əməl etməkdir. Ayətullah Misbah Yəzdi seyri-sülukda pluralizmin inkarı haqqında deyir: “İslamın heç vaxt şəriət və təriqət adlı iki proqramı olmayıb. İslam toplum olaraq vahid həyat proqramından artıq bir şey deyil və bunda məqsəd də insanların yüksəlişidir və onları kamalın, İlahi “qürb” (Allaha yaxınlıq) məqamının ən ali mərtəbələrinə

çatdırmaqdır.” Hər halda “vücudi” və “ruhi” mərtəbələrin ən uca nöqtəsinə çatmaq, yalnız İslam qanunlarına və əmrlərinə əməl etməklə mümkündür. Başqa sözlə, İslamın mənəvi süfrəsi elə bir süfrədir ki, hamı ondan öz ləyaqətinə, istedadına və bacarığına uyğun olaraq faydalana və ruhunu, canını qidalandıra bilər.

Mərhum Molla Hüseynqulu Həmədani təbrizli alimlərin birinə yazdığı məktubda seyri-sülukda pluralizmin qəbul olunmaması haqda belə yazır: “Dini qardaşlara gizli qalmasın ki, mülklərin sahibi Allahın qürb (Allaha yaxınlıq) məqamına çatmaq üçün bütün hərəkətlərdə, davranışlarda, sükunətlərdə, söhbətlərdə və anlarda şəriətə əməl etməkdən başqa yol yoxdur. Zövqi xurafatlarla yol getmək (bundan başqa yerlərdə zövq yaxşı ola bilər, necə ki, bu, cahil sufilərin metodudur) həqiqətdən uzaq düşməkdən başqa bir şeyə səbəb olmaz. Hətta şəxs yemək və içməyi kənara qoysa, əgər İmamların (ə) məsumluğuna iman gətiribsə bilməlidir ki, Allahdan uzaq düşəcək və həmçinin İmamlardan (ə) gəlib çatan zikirlərdən başqa zikirlərə əməl etsə belə. Buna əsasən, ilk növbədə şəriəti əsas tutmalı və şəriətdə əhəmiyyət verilənə əhəmiyyət verməlidir. Bu həqirin əql (ağıl) və nəqldən istifadə etdiyi budur ki, qürb məqamına çatmaq istəyən şəxs üçün ən əhəmiyyətli şey günahları tərk etməkdə ciddilik və səydir. Nəticə budur ki, İlahi qürb məqamına çatmaq üçün hər yerdə şəriətə əməl etməkdən başqa yol yoxdur.”

Əllamə Təbatəbai də bəzi mənfəətpərəstlərin sufiliyin yayılmasından sui-istifadə etmələrini və onların tamahkarlıqlarını, nəticədə insanların bu qrupa bədbin olmalarına səbəb olmasını deməklə yanaşı qeyd etmişdir ki, Sufilərin İslam şəriəti və ilahi qanunlardan uzaqlaşması onların hicri 6-7-ci əsrdən üzü bu yana çökməsinin ən əsas səbəblərindən biri olmuşdur: “Bəzi sufilər iddia etdilər ki, özünü düzəltmə və seyri-süluk

metodu xüsusi bir metoddur, İslam şəriəti onu bəyan etməyib. Bu baxışa itaət etmək onların yavaş-yavaş İslam şəriətinə ümumiyyətlə etinasız yanaşmasına gətirib çıxardı və onlar" cazibə" və "fəna" halları yaratmaq üçün daim daha sadə, daha tez yollar axtarırdılar. Daha sonra şəri haramların bir çoxunu halal bildilər, həşiş, tiryək və s. kimi uyuşdurucu maddələrin istifadəsinə üz tutdular və bununla da özlərini fəna məqamına çatdırırdılar.

Amma ağıl və şəriət hökm edir ki, Allaha yaxınlıq məqamına ən gözəl və ən münasib vasitə, həqiqətə çatmağın yeganə vasitəsi İslam və vəhyani şəriətə itaət etməkdir. Necə ola bilər ki, həqiqətə çatmağın daha yaxşı, daha sadə yolları olsun, amma Allah-taala onu Öz bəndələrindən əsirgəsin? Məgər Quran buyurmurmu ki, "Biz kitabı sənə nazil etdik, hər şeyi izah etsin deyə" (Nəhl-89). Buna görə də əgər batini həqiqətlər varsa var və əgər onlara qovuşmağın yolu varsa var, amma bu yol yalnız şəriətə məxsusdur. Bəşərin yaratdığı yollar çox vaxt nəfsani meyllər əsasındadır və heyvani istəklərə uyğundur və onlar insanı bir yerə aparıb çıxarmayacaq. Doğrudan da bu ağalar necə olur ki, gözəl üzlü cavanlara baxmağı, onlarla keçinməyi, rəqsi və s. kimi şeyləri Allaha çatmağın yolu hesab edirlər? Amma məgər Afrikanın qaradərili, ağ dişli insanları Allahın yaratdıqları deyilmi? Məgər səmalarda, yerdə, güllərdə, dağlarda, dənizlərdə olan bütün bu qədər gözəllikləri müşahidə etməklə Allahın əzəmətini dərk etmək mümkün deyil?

**Nəticə**

Yalançı irfanların və yeni meydana gəlmiş mənəvi ayinlərin bir çox xüsusiyyətlərindən biri də "əxlaqda realizm" i (dəyərlərə real yanaşma) inkar etməkdir. İzahı: müasir irfanların və yeni yaranmış mənəvi ayinlərin bir çoxu Qərbə hakim olan

sekulyarizm və liberalizm dəyərlərindən təsirlənib. Onlar bütün dini, əxlaqi, siyasi və ictimai dəyərlərin hamısının qeyri-həqiqi olduğunu deyir və iddia edirlər ki, insanın əməllərinin pis, yaxud yaxşı olması fərdlərin meylinə və baxışına bağlıdır. Yaxud da, uzağı, cəmiyyətin şərti qəbul etdiyi, onun zövqünə uyğun olan bir istəkdir. Əgər bir şəxs dəyərlərin həqiqi olduğunu qəbul etməsə, təbii olaraq onun “pluralizm”, “nisbilik”, “irrasionallıq” (ağıla aid olmayan, ağıl ilə isbat oluna bilməyən, ağılın imkanlarındna xaric olan, isbatolunmazlıq) kimi nəticələrini də qəbul etməlidir. Dəyərlərin zövqi və şərti olmasını demək onların nisbi olmasını qəbul etmək deməkdir. Çünki, fərdlərin şəxsi zövqü, şəxsi baxışı, ola bilər ki, yer üzərindəki insanların sayı qədər fərqli olsun, yaxud şərti qəbul olunan şeylərin müxtəlif qrup və cəmiyyətlərin sayı qədər müxtəlif və fərqli olması mümkündür. Dəyərlərin nisbi olmasının onların məkan və zamandan asılı olmasından, fərdlərin istəklrinə, meyllərinə bağlı olmasından başqa mənası yoxdur. Yeni yaranmış mənəvi ayinlərin ideoloqları bəzən açıq-aydın bu məsələni xatırlatmış və dəyərlərin nisbi olduğunu demişlər. Burada, dəyərlər haqqında bu baxışların bəzi nümunələrinə toxunaq:

“Ek” irfanının böyükləri onun ardıcıllarından birinin “Ekeknkar aborta, yaxud homoseksualizmə müxalifdirmi?” sualının cavabında deyirlər: “Ekenkar abort, boşanma, cinsi məsələlər kimi mövzulara şəxsi qərarlar olaraq yanaşır və özü heç bir nəzər vermir.”

İslam təlimlərinə əsasən dəyərlərin hamısının kökü (istər əxlaqi, istər siyasi, iqtisadi, istərsəd də ictimai olsun) həqiqətlərə söykənir. Zövqi, şəxsi, şərti və süni deyil. Dəyərlərlə insanın həqiqi səadəti arasında “təkvini” və “səbəb-nəticə” əlaqəsi vardır. Buna görə də fərdi meyl, zövq və istəyin, yaxud ümumi rəyin,

ictimai müqavilənin, cəmiyyətin şərti qəbul etməsinin onlara heç bir təsiri yoxdur. Misal olaraq, sələmin haram olması ona görə deyil ki, camaat onu qəbul etmir, yaxud rəy vermirlər. Əksinə, sələmin haram olmasının həqiqi dəlili (əlbəttə, bunu İlahi əmr göstərib) onun bəşərin həqiqi səadəti ilə həqiqi ziddiyyətidir. Yaxud zinanın haram olmasının dəlili zövqə, meylə və şərtə əsaslanmır. Camaatın zövqünün, ictimai müqavilənin dəyişməsi ilə bu hökm dəyişə bilməz. Əksinə, zina ona görə haram olunub ki, həqiqətən də bədbəxtçiliyin səbəbidir.

## Ədəbiyyat

Qurani-kərim
M. Mütəhhəri, “Əsərlər Məcmuəsi” kitabı, çap 2004
Misbah Yəzdi, “İslam İrfanı axtarışında”, çap 2006
Məhəmməd ibn Munəvvər, “Əsrarut-Tövhid fi Məqamatiş-Şeyx Əbi Səid”, çap 1984
Amidi, Təmimi, Əbdül-vahid, Dürərul-Hikəm, Tehran: 1984
Amuli, Hürr, Məhəmməd ibn Həsən, Vəsailüş-Şiə, Qum: 1974
Cəfəri, Yəqub, Nəhcül-Bəlağənin Tarixi Baxışı, Tehran: 1996
Cəfəri, Məhəmməd Təqi, Nəhcül-Bəlağənin tərcümə və təfsiri, Qum: 1999
Cordaq, Corc, Nəhcül-Bəlağənın gözəlliklərindən bir hissə, Beyrut: 2001
Cövhəri, İsmayıl ibn Həmmad, Sihahül-Lüğət, Qahirə: 1997
Ədibi, Hüseyn, İctimai təbəqələr sosiologiyası
Ənsari, Məhəmməd Əli, Ğurərul-Hikəm və Durərul-Kəilim
Payəndə, Əbul-Qasim, “Nəhcul-fəsahə”, Tehran: Dünyayi daniş nəşriyyatı1382
Firuzabadi, Məhəmməd ibn Yqub, Qamusül-mühit
Xansari, Ağa Cəmaləddin, Ğurərül-Hikəm”in şərhi
Gilani, Əbdür-rəzzaq, Misbahuş-Şəriənin şərhi, Tehran: 2003
Həkim, Seyid Məhəmməd Təqi, Əli (ə) kəlamlarından ilham
İbn Babəveyh, Səduq, Xisal, Qum: 1992
İbn Meysəm, İxtiyaru-Misbahis-Salikin
İraqi, Əlirza, İmam Əli (ə) nəzərindən hakimiyyət və müdiriyyətə baxış